# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsində

## Çıxışlar

### Fəttah HEYDƏROV, Milli Məclisin deputatı.

(Əvvəli 2-ci səhifədə).

Qazanılan uğurları gözü götürməyənlərin, xəbislərin araya girmək istəməsi



isə əbəsdir. Bizim üzərimizə düşən vəzifə ondan ibarətdir ki, işimizi yaxşı quraq müstəqil dövlətimizə dəstək olaq, tapşırılan işləri, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirək.

Mən tez-tez xarici ölkələrdə rəsmi səfərlərdə oluram. Bu səfərlər zamanı hər yerdə Azərbaycanın uğurlarından söhbət açılır, hətta artıq Qəbələnin şöhrəti də bir çox xarici ölkələrə yayılıb. Sizə yaxşı məlumdur ki, son illərdə bir sıra ölkələrin dövlət xadimləri, diplomatlar Qəbələdə olmuş, ölkənin bu regionuna minlərlə turistlər, yüzlərlə iş adamları ayaq açmışlar. Burada hər il bir sıra beynəlxalq tədbirlər də keçirilir. Bunların hamısı tarixi çox qədim olan Qəbələnin şöhrətinin özünə qaytarılması deməkdir.

Rayonun daha sürətli inkişafı hələ qarşıdadır. Şəhərin ərazisinin iki dəfə böyüməsi, iş yerlərinin artırılması, yeni müəssisələrin açılması, yaşayış komplekslərinin tikilməsi hesabına əhalisinin də artırılması nəzərdə tutulur. Qarşıda bizi böyük, məsul və şərəfli işlər gözləyir. Bunun üçün ehtiyat mənbələrimiz, daxili imkanlarımız, maliyyə mənbələrimiz də vardır. Sizinlə birlikdə bu vəzifələrin öhdəsindən ləyaqətlə gələcəyik.

Lakin bizim bir yaralı yerimiz vardır. O da ermənilərlə aramızda olan Qarabağ konfliktidir. Cənab Prezidentimiz bu məsələnin həlli üçün var qüvvəsini sərf edir. Azərbaycanın ərazi bütövlüyü dünya miqyasında daha yüksək səviyyədə dəstəklənir. Bu məsələ ilə əlaqədar aparılan siyasi dialoqlar bizi əmin edir ki, ölkəmizin ərazi bütövlüyü təmin olunacaq, işğal olunmuş torpaqlarımız geri qaytarılacaq, məcburi köçkün və qaçqınlarımız öz doğma yurd-yuvasına qaytarılacaqlar.

Bir daha sizlərə qarşımızda duran möhtəşəm vəzifələrin həllində uğurlar arzulayıram.

### Əflatun RUFİYEV, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi.

**Hörmətli müşavirə iştirakçıları!**

İcazə verin, əvvəlcə sizi və sizin şəxsinizdə bütün qəbələliləri salamlayım və hamınıza 2013-cü ildə yeni-yeni uğurlar arzulayım.

Biz sizinlə birlikdə rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Qəbələdə 2012-ci ilin sosial-iqtisadi inkişafı barədə görülən işlər üzrə hesabat məruzəsini və məruzə ətrafında çıxışları dinlədik. Məlum oldu ki, 2012-ci il Qəbələ üçün də çox uğurlu il olmuşdur. Burada ildən-ilə görülən işlər həqiqətən böyük bir fərəh doğurur. İstər məruzədən, istərsə də çıxışlardan aydın oldu ki, Qəbələdə həm sənayenin, həm kənd təsərrüfatının, təhsilin, mədəniyyətin, səhiyyənin, bütün xidmət sahələrinin yüksəlməsində, eyni zamanda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında xeyli dönüş yaradılmışdır. Cənab Prezident Nazirlər Kabinetinin 2012-ci ilin yekunlarına dair iclasındakı çıxışında ötən ildə davamlı inkişafdan söhbət açmış, bu uğurlarda bölgələrin də xüsusi payı olduğunu vurğulamışdır. 2012-ci il bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün əsil mənada önəmli il olmuşdur. Ümumi daxili məhsul 2,2 faiz artmış, qeyri-neft sektoru 8 faiz, kənd təsərrüfat məhsullarının istehsalı 6 faiz, əhalinin pul gəlirləri 13,8 faiz yüksəlmiş, inflyasiya 1,1 faiz səviyyəsində olmuşdur. Respublikada investisiya xərcləri 22 milyard dolları keçmişdir. Valyuta ehtiyatımız 46 milyard dollara çatmışdır. Bütün bunlar imkan vermişdir ki, 2013-



cü ildə dövlət büdcəmiz 20 milyard dollara yüksəlmişdir.

Cənab Prezident çıxışında sosial sahədə aparılan işlər üzərində də ətraflı dayanmışdır. Ötən il təhsil, səhiyyə, mədəniyyət ocaqlarının tikintisi davam etdirilmiş, xalqın həyat səviyyəsinin yüksəldilməsi üçün 117 min iş yerinin, bütövlükdə regionların sosial-iqtisadi inkişafı üzrə iki Dövlət Proqramının icrası ilə əlaqədar 1 milyon 200 min iş yerinin yaradılmasını qeyd etmişdir.

Möhtərəm və hörmətli Prezident regionların sosial-iqtisadi inkişafı üzrə ikinci Dövlət Proqramının yerinə yetirilməsinə həsr olunmuş yığıncaqda da qarşımızda duran ən mühüm məsələlərə toxunmuşdur. Cənab Prezident qeyd etmişdir: «Bu ilin sonuna qədər ikinci Dövlət Proqramının icrası təmin ediləcəkdir. Beləliklə, 10 ili əhatə edən bir dövr arxada qalacaqdır. Ancaq artıq bu gün də demək olar ki, həm 2004-cü ildə, həm də 2009-cu ildə qəbul edilmiş iki dövlət proqramının icrası ölkəmizin inkişafı üçün çox böyük rol oynamışdır. Əgər bu proqramlar qəbul edilməsəydi indi bölgələrdə gedən inkişafdan söhbət aparmaq belə yersiz olardı. Məhz 2004-cü ildə qəbul edilmiş bu qərar ölkəmizin hərtərəfli dayanıqlı və şaxələndirilmiş şəkildə inkişafını təmin etmişdir».

Cənab Prezident yığıncaqda buraxılan bir sıra nöqsanlardan da danışmış, məmur özbaşnalığı məsələsinə də toxunmuş, belə hallara qarşı ciddi surətdə öz iradlarını bildirmişdir. Dövlət məmurlarının əhaliyə yuxarıdan aşağı baxması hallarını qətiyyətlə pisləmişdir. Eyni zamanda bizim bütün fəaliyyətimizin mərkəzində insan amilinin dayandığını bir daha nəzər-diqqətə çatdırmışdır.

Cənab Prezidentimiz İlham Əliyevin regionların, bütövlükdə ölkənin sosial-iitisadi inkişafı, xalqın həyat səviyyəsinin yüksəlməsi üçün verdiyi tapşırıqlarla yəqin ki, bu günkü toplantının iştirakçıları yaxından tanışdırlar. Buradakı məruzə və çıxışlar məni əmin edir kİ, dövlət başçısının bütün tövsiyə və tapşırıqları siz qəbələlilər tərəfindən uğurla icra olunacaq, öz fədakar əməyinizlə dövlətimizə və dövlətçiliyimizə sədaqətinizi bildirəcəksiniz.

**Diqqətinizə görə çox sağ olun.**

### Samid AĞAYEV, rayon maliyyə idarəsinin rəisi.

Əvvəlki illərdə olduğu kimi bütövlükdə 2012-ci il ölkə iqtisadiyyatı üçün çox uğurlu il olmuş, sosial-iqtisadi xətt müvəffəqiyyətlə davam etdirilmiş, ölkə iqtisadiyyatının dinamik inkişafı, Azərbaycan xalqının rifah halının yüksəldilməsi, ölkəmizin beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Əldə olunmuş bütün uğurlar Qəbələ rayonu üçün də xarakterik olmuşdur. Belə ki, Qəbələ rayonu üzrə 2012-ci ilin yerli gəlirləri üzrə proqnozlaşdırılmış gəlirlər artıqlaması ilə yerinə yetirilərək yerli gəlirlər 7.896.000 manat proqnoza qarşı 9.758.074 manat (124 faiz) yerinə yetirilmişdir. Bu ötən illə müqayisədə 1.951.199 manat çoxdur.

Qarşılıqlı hesablaşma üzrə əməkhaqqı, nəqliyyat vasitələrinin icbarı sığorta və digər xərclərin artımı ilə bağlı 1.141.448 manat vəsait ayrılmışdır ki, həmin məbləğ də qanunamüvafiq qaydada istifadə olunmuşdur.

Rayonun yerli gəlirlərinə aid olan məbləğin 1.862.074 manat çox yerinə yetirilməsi ilə əlaqədar yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılmış dotasiya 9.380.825 manat proqnoza qarşı 7.055.200 manat icra olunmuşdur. Bunun nəticəsində 2.325.625 manat dövlət vəsaitinə qənaət edilmişdir.

Yerli büdcənin hesabında



1 yanvar 2013-cü il tarixə 254.815 manat vəsait qalığı yaranmışdır. Mövcud qanunvericiliyə uyğun olaraq həmin vəsait Mərkəzi Xəzinədarlıq orqanına köçürülməsi təmin edilmişdir.

Qəbələ rayonunun 2012-ci il yerli xərclərinin icrası 17.276.825 manat proqnoza qarşı 16.558.460 manat icra olunmuşdur.

İstifadə olunmuş vəsaitin 13.925.233 manatı və ya 84 faizi «Təhsil, Səhiyyə, Mədəniyyət xərcləri» bölməsinə yönəldilmişdir.

Büdcədən maliyyələşən təşkilatlar üzrə əmək haqlarının ödənilməsi üçün bütün işçilər plastik kartlarla təmin olunmuşdur.

Bildiyimiz kimi digər sahələrdə olduğu kimi Azərbaycan Respublikası Maliyyə Nazirliyi sistemində də xidmətlər elektron qaydada həyata keçirilir. Bütün büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar üzrə cari ildən başlayaraq əmək haqqı və ona bərabər tutulan xərclərin (pensiya, müavinət, ezamiyyə xərcləri və.s) elektron qaydada tətbiqinin təmin olunması barədə Maliyyə Nazirliyi tərəfindən müvafiq tapşırıqlar verilmişdir.

Qəbələ rayonunun 2013-cü il üçün yerli xərcləri 19.707.805 manat təsdiq edilmişdir ki, bu ötən illə müqayisədə 2.430.980 manat çoxdur.

Artıq 2013-cü büdcə ilinin gəlir və xərclərinin icrası prosesinə başlanmışdır.

**(Ardı 3-cü səhifədə).**